
Meksikada fermer üsyanları davam edir Meksikada fermer üsyanları davam edir

“The Associated Press” agentliyinin Meksikadan verdiyi xəbərdə deyilir ki, bu ölkənin cənubundan olan gənc fermer özünə od vurub. Çiapas ştatındakı yerli parlamentin qarşısına gələn gənc tələb edib ki, onun atasını həbsdən buraxsınlar. Həmin şəxs isə yerli lider hesab olunur və 2011-ci ildə zoraklıqla müşahidə olunan kütləvi etiraz aksiyalarının təşkilatçısıdır.

Gənc fermer olan Aqustin Qomes Peresin 21 yaşı var. O, üzərinə yanacaq töküb və özünə od vurub. Od içində olan şəxsi digər etirazçılar yerə yıxaraq, söndürüblər. Fermer təcili xəstəxanaya çatdırılıb. Onun ögey anası deyib ki, Qomesin vəziyyəti ağır olsa da, stabildir. Bədənində 2-ci və 3-cü dərəcəli yanıq yerləri var.

Aqustin Qomes Peres və digər fermerlər ötən il həbs olunmuş Florentino Qomes Qironun azad edilməsini tələb edir. O isə qətl törətməkdə, sürü oğurluğunda, mütəşəkkil cinayətkarlıqda ittiham olunur. Onun adamları polis maşınlarına od vurublar, şəhər merinin binasını yandırıblar.

Gənc fermer atasına görə özünü yandırsa da, yerli rəhbərlik qeyd edib ki, onun atası hələ uzun müddət həbsdə qalmalı olacaq.
Qeyd edək ki, Meksika dünyanın ən kasıb ölkələrindən biridir. Orada bu kimi zoraklıqlarla müşahidə olunan kütləvi iğtişaşlar tez-tez olur.